| | |
|---|---|
| **RAZILAŞDIRILMIŞDIR:** | **TƏSDIQ EDIRƏM:** |
| **Azərbaycan Respublikası<br>Maliyyə Bazarlarına Nəzarət Palatasının<br>Baş icraçı direktoru** | **"AtaSığorta"<br>Açıq Səhmdar Cəmiyyətinin<br>İdarə Heyətinin sədri** |
| **___________________ İ.Ə.Alışov** | **___________________ M.F.Əliyev** |
| **"___" _____________ 2018-ci il** | **"___" _____________ 2017-ci il** |

# AVTOMOBİLLƏRİN

# UZADILMIŞ ZƏMANƏT SIĞORTASI

# QAYDALARI

## MÜNDƏRİCAT


1. ÜMUMİ MÜDDƏALAR
2. ƏSAS ANLAYIŞLAR
3. SIĞORTA MÜQAVİLƏSİNİN TƏRƏFLƏRİ
4. SIĞORTA OBYEKTİ VƏ PREDMETİ
5. SIĞORTA RİSKLƏRİ
6. SIĞORTA HADİSƏSİ
7. SIĞORTA TƏMİNATINDA MƏHDUDİYYƏTLƏR
8. SIĞORTA MƏBLƏĞİ
9. AZADOLMA
10. SIĞORTA HAQQI
11. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI
12. SIĞORTA MÜDDƏTİ VƏ SIĞORTA ƏRAZİSİ
13. SIĞORTA MÜQAVİLƏSİNƏ ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ
14. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERİLMƏSİ
15. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏ İLƏ BAĞLI XƏBƏRDAR ETMƏ
16. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ
17. TƏRƏFLƏRİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ
18. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ
19. ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ
20. SIĞORTA ÖDƏNİŞİNİN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI VƏ ŞƏRTLƏRİ, SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR
21. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI
22. SIĞORTA MÜQAVİLƏSİNİN ŞƏRTLƏRİNİN YERİNƏ YETİRİLMƏMƏSİNƏ VƏ YA LAZIMİ QAYDADA YERİNƏ YETİRİLMƏMƏSİNƏ GÖRƏ TƏRƏFLƏRİN MƏSULİYYƏTİ
23. SUBROQASİYA HÜQUQU
24. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. "Avtomobillərin uzadılmış zəmanət sığortası qaydaları" (bundan sonra bu Qaydalar) Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır və avtomobillərin uzadılmış zəmanət üzrə könüllü sığortası üzrə qaydalar və şərtləri müəyyən edir.

1.2. Sığorta müqaviləsindən irəli gələn və bu Qaydalarda nəzərdə tutulmayan hallar Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

1.3. Bu Qaydalar, habelə sığortalı tərəfindən doldurulmuş sığortalanma haqqında ərizə (Əlavə) sığorta müqaviləsinin ayrılmaz hissəsi hesab olunur.

1.4. Bu Qaydalarla müəyyən olunan sığorta növü avtonəqliyyat vasitələrinin sığortası sinfinə aiddir.

## 2. ƏSAS ANLAYIŞLAR

2.0. Bu Qaydalarda aşağıdakı əsas anlayışlardan istifadə olunur:

2.0.1. **Avtomobil -** yollarda adamların və ya yüklərin daşınması, yaxud adam və ya yük daşıyan nəqliyyat vasitələrinin yedəyə alınması üçün istifadə edilən nəqliyyat vasitəsi;

2.0.2. **Sığortaçı –** "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan sığorta şirkəti;

2.0.3. **Sığortalı -** sığorta haqqı ödəyərək avtomobili sığorta etdirən sığorta müqaviləsinin tərəfi;

2.0.4. **Sığorta olunan -** sığorta müqaviləsi əsasında avtomobil ilə bağlı risklərlə əlaqədar əmlak mənafeləri sığortalanan şəxs;

2.0.5. **Faydalanan şəxs -** sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxs;

2.0.6. **Sığorta riski -** sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik;

2.0.7. **Sığorta hadisəsi -** sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

2.0.8. **Sığorta ödənişi -** sığorta hadisəsi baş verdikdə, sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

2.0.9. **Sığorta müqaviləsi -** sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi yazılı razılaşma;

2.0.10. **Sığorta şəhadətnaməsi -** sığorta müqaviləsinin bağlanmasını təsdiq edən və sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd;

2.0.11. **Sığorta obyekti -** sığortalının, yaxud sığorta olunanın avtomobillə bağlı qanunazidd olmayan əmlak mənafeyi;

2.0.12. **Sığorta predmeti** – bu Qaydalara münasibətdə sığortalanan avtomobil;

2.0.13. **Sığorta müddəti –** sığorta müqaviləsinin qüvvədə olduğu müddət;

2.0.14. **Sığorta haqqı –** sığorta etdirilən avtomobillə əlaqədar risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;

2.0.15. **Sığorta məbləği -** sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

2.0.16. **Sığorta tarifi -** sığorta haqqının hesablanması üçün sığorta məbləğinə tətbiq edilən, faizlə ifadə olunan dərəcə;

2.0.17. **Azadolma məbləği** - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta müqaviləsi ilə təminat verilməyən və sığortalının üzərində qalan hissəsi;

2.0.18. **Sığorta tələbi -** sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığorta ödənişinin həyata keçirilməsi məqsədilə sığortaçıya ünvanlandığı müraciəti;

2.0.19. **Avtomobilin sahibi** - sığortalanan avtomobilin mülkiyyətçisi, yaxud avtomobilə digər qanuni əsasla (icarə hüququ ilə, nəqliyyat vasitəsini idarə etmək hüququna dair etibarnamə üzrə və s.) sahiblik edən şəxs;

2.0.20. **Rəsmi diler** (bundan sonra Diler) **–** avtomobillərin satışına, texniki müayinəsinə, zəmanətli və zəmanətdən sonra təmir işlərinin həyata keçirilməsinə İstehsalçı tərəfindən səlahiyyət verilmiş Azərbaycan Respublikası ərazisində qeydiyyatdan keçmiş hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs;

2.0.21. **Avtomobil istehsalçısı –** avtomobili istehsal edən hüquqi şəxs;

2.0.22. **İstehsalçının zəmanəti** – avtomobilin istehsalçısının və ya rəsmi dilerin, istehsalçı tərəfindən nəzərdə tutulmuş zəmanət müddəti ərzində, istehsal qüsuru səbəbindən sıradan çıxmış hissələrin və ya mexanizmlərin pulsuz təmir etməsi və ya dəyişməsi öhdəliyi;

2.0.23. **Avtomobillərin texniki xidmət stansiyası (ATXS)** – İstehsalçının tələblərinə uyğun olaraq avtomobillərə texniki xidmət göstərmək və təmir işlərini həyata keçirmək üçün zəruri material və insan resurslarına malik olan rəsmi dileri (nümayəndəliyi);

2.0.24. **Texniki müayinə qrafiki** – İstehsalçı tərəfindən müəyyən edilmiş və servis kitabında və (və ya) avtomobilin istismar təlimatında göstərilmiş avtomobilin müəyyən istismar müddətinə və ya keçdiyi məsafəyə çatması ilə əlaqədar həyata keçirilməli olan məcburi texniki müayinələr və əməliyyatlar. Texniki müayinə qrafikinə nəzərdə tutulmuş bütün müayinələrin və əməliyyatların müəyyən edilmiş müddətlərdə ATXS tərəfindən həyata keçirilməsi halında riayət olunmuş hesab edilir.

## 3. SIĞORTA MÜQAVİLƏSİNİN TƏRƏFLƏRİ

3.1. **Sığortaçı** - bu Qaydalara əsasən sığortaçı dedikdə «AtaSığorta» Açıq Səhmdar Cəmiyyəti başa düşülür.

3.2. **Sığortalı** - istənilən fəaliyyət qabiliyyətli fiziki şəxs, həmçinin hüquqi şəxs sığorta müqaviləsi bağlayaraq avtomobillə bağlı müvafiq riski bu Qaydalara əsasən sığorta etdirə bilər.

## 4. SIĞORTA OBYEKTİ VƏ PREDMETİ

4.1. Bu Qaydaların məqsədlərinə uyğun olaraq sığorta predmeti sığortalının sahibliyində olan avtomobillər hesab olunur.

4.2. Bu Qaydaların məqsədlərinə uyğun olaraq ictimai yollarda hərəkət etməyə icazəsi olan və tam saz vəziyyətdə olan avtomobillər sığortalana bilər.

4.3. Avtomobil sığortalanarkən tam saz vəziyyətdə olmalıdır. Avtomobilin tam saz vəziyyətdə olmasını ATXS xüsusi texniki müayinə keçirərək və xüsusi yoxlanış aktı dolduraraq təsdiq edir. Texniki müayinə zamanı hər hansı nasazlıq aşkar olunduğu halda müvafiq avtomobil yalnız nasazlıq aradan qaldırıldıqdan sonra sığortalana bilər.

4.4. Aşağıdakı hallarda avtomobillər sığortalanmır:

4.4.1. avtomobilin qeydiyyat şəhadətnaməsi mövcud olmadığı halda;

4.4.2. yürüş sayğacı olmayan, nasaz vəziyyətdə olan və ya müdaxilə edilməsi və göstəricilərin dəyişdirilməsi izləri olan avtomobillər;

4.4.3. ictimai yollardan kənarda hərəkəti nəzərdə tutulmuş nəqliyyat vasitələri;

4.4.4. İstehsalçı ilə razılaşdırılmadan avtomobilin hər hansı hissələrinə müdaxilə, modifikasiya və/və ya konstruktiv dəyişikliklər edilmiş avtomobillər;

4.4.5. xüsusi və qəza xidmətlərində istifadə olunan avtomobillər;

4.4.6. təlim məqsədilə, yaxud rəsmi və ya qeyri-rəsmi yarışlarda, sürət müsabiqələrində, sürət sınaqlarında, avtomobil rallilərində, davamlılıq sınaqlarında istifadə olunan avtomobillər;

4.4.7. təhlükəli yüklərin daşınmasında istifadə olunan avtomobillər;

4.4.8. İstehsalçı tərəfindən nəzərdə tutulmuş vaxtaşırı texniki müayinələrdən keçməyən avtomobillər;

4.4.9. Sığortalanma anına vaxtaşırı texniki müayinələrdən keçməsi təsdiq edilə bilməyən avtomobillər;

4.4.10. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa:

4.4.10.1. Sığortalanma anında istehsal tarixindən 5 (beş) ildən artıq müddət keçmiş MDB dövlətlərində istehsal edilmiş, 10 (on) ildən artıq müddət keçmiş xarici dövlətlərdə (MDB dövlətləri istisna olmaqla) istehsal edilmiş avtomobillər;

4.4.10.2. 200 000 km və ya daha çox məsafə keçən avtomobillər;

4.4.10.3. İcazə verilmiş maksimal kütləsi 3500 kq-dan çox olan avtomobillər;

4.4.10.4. zirehli avtomobillər.

## 5. SIĞORTA RİSKLƏRİ

5.1. Sığortalıya bu Qaydalara əsasən sığortalanmış avtomobilə aşağıda qeyd olunan risk nəticəsində dəyə bilən zərərlərdən sığorta təminatı verilir:

5.1.1 **Sınma** - gözlənilməyən mexaniki və ya elektrotexniki nasazlıq və ya qüsur nəticəsində avtomobilin hissəsinin, komponentinin, mexanizminin və ya aqreqatının öz funksiyalarını yerinə yetirə bilməyəcək vəziyyətə düşməsi.

## 6. SIĞORTA HADİSƏSİ

Sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu Qaydaların 5-ci bəndində nəzərdə tutulmuş riskin baş verməsi nəticəsində sığortalanmış avtomobilə zərər dəyməsi faktı sığorta hadisəsi sayılır.

## 7. SIĞORTA TƏMİNATINDA MƏHDUDİYYƏTLƏR

7.1. Sığorta təminatı avtomobilin yalnız səlahiyyət verilmiş ATXS-da texniki xidmətin göstərilməsi və yalnız keyfiyyətini təsdiq edən uyğunluq və mənşə sertifikatı olan orijinal ehtiyat hissələrindən istifadə edildiyi halda qüvvədədir.

7.2. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində Sığortaçı tərəfindən avtomobilin hər hansı hissəsi, komponenti, mexanizmi və aqreqatı üzrə verilmiş sığorta ödənişindən sonra həmin hissənin, komponentin, mexanizmin və ya aqreqatın təkrar sınmasına sığorta təminatı verilmir.

7.3. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, avtomobil 200 000 km məsafə keçdiyi andan sığorta təminatı qüvvədən düşür.

7.4. Aşağıda qeyd olunan hallarda sığorta təminatı verilmir:

7.4.1. Avtomobilin identifikasiya nömrəsini (BAN), şassi və/və ya mühərrikin nömrəsini müəyyən etmək mümkün olmadıqda və ya həmin nömrələr sığorta müqaviləsində qeyd olunan nömrələrlə uyğun gəlmədikdə (fərqli olduqda);

7.4.2. Sığortalı öz avtomobilini rəsmi dilerə məxsus ATXS-da istehsalçı tərəfindən nəzərdə tutulmuş vaxtda texniki müayinədən keçirmək vəzifəsini yerinə yetirmədiyi halda keçirilməmiş texniki müayinənin vaxtından sonra avtomobilin hər hansı hissəsinin, komponentinin, mexanizminin və ya aqreqatının sınması;

7.4.3. Rəsmi dilerinə aid ATXS-nın mütəxəssisləri tərəfindən hər hansı nasazlığın aşkar olunmasından sonra avtomobilin həmin nasazlıq aradan qaldırılmadan istifadəsinə davam edilməsi nəticəsində avtomobilin hər hansı hissəsinin, komponentinin, mexanizminin və aqreqatının sınması;

7.4.4. Avtomobilin sığorta müqaviləsində göstərilmiş sığorta olunmayan hissələrinin, komponentlərinin, mexanizmlərinin və ya aqreqatlarının sınması;

7.4.5. Sığorta müqaviləsi ilə sığorta olunmamış hissələrinin, komponentlərinin, mexanizmlərinin və ya aqreqatlarının sınması nəticəsində avtomobilin sığorta olunmuş hər hansı hissəsinin, komponentinin, mexanizminin və ya aqreqatının sınması;

7.4.6. Avtomobilin hər hansı hissəsinin, komponentinin, mexanizminin və aqreqatının sınmasının İstehsalçı tərəfindən verilən zəmanət müddəti ərzində baş verməsi müəyyən olunduqda;

7.4.7. Avtomobilin hər hansı hissəsinə, komponentinə, mexanizminə və ya aqreqatına İstehsalçı tərəfindən səlahiyyət verilməmiş hər hansı şəxs tərəfindən müdaxilə edildiyi halda həmin müdaxilədən sonra baş verən sınma;

7.4.8. Mexaniki və ya konstruktiv qüsur nəticəsində dəyən zərərlər ilə bağlı İstehsalçı tərəfindən avtomobillərin geri çağırılması və ya təmirə verilməsi elan edildiyi halda həmin hissələrə, komponentlərə, mexanizmlərə və ya aqreqatlara münasibətdə;

7.4.9. Sığortalının qəsdən etdiyi və ya etmədiyi hərəkətlər (məs. İstehsalçının texniki təlimatlarına və tövsiyələrinə riayət etməməsi, istehsalçı/diler tərəfindən səlahiyyət verilməyən ATXS-na müraciət edilməsi, uyğunluq və mənşə sertifikatı olmayan ehtiyat hissələrindən istifadə edilməsi, Sığortalı və ya digər səlahiyyətli olmayan şəxslər tərəfindən zavod plomblarının açılması, konstruktiv elementlərin sökülməsi və ya dəyişdirilməsi və s.);

7.4.10. Avtomobil hissələrinin və aqreqatlarının daxilinə mayelərin sızması;

7.4.11. Avtomobilin istifadəsi zamanı istehsalçı tərəfindən nəzərdə tutulmuş temperatur diapazonunun hədlərindən kənara çıxan temperaturların təsiri;

7.4.12. Avtomobilin istifadəsi zamanı istehsalçı tərəfindən nəzərdə tutulmuş temperatur diapazonuna uyğun gəlməyən texniki mayelərin, materialların və hissələrin istifadə olunması;

7.4.13. Avtomobil hissələrinin, komponentlərinin, mexanizmlərinin və ya aqreqatlarının sınma halı olmadan avtomobilin texniki göstəricilərini yaxşılaşdırma məqsədi ilə belə hissələrinin, komponentlərinin, mexanizmlərinin və ya aqreqatlarının dəyişdirilməsi;

7.4.14. Avtomobil hissələrinin, komponentlərinin, mexanizmlərinin və ya aqreqatlarının sınmasından irəli gələn hallar istisna olmaqla, təkərlərin quraşdırma bucaqlarının, təkərlərin balansının, sükan idarəedici sisteminin, havalandırma sisteminin, qapı kilidlərinin tənzimlənməsi və digər bu kimi tənzimləyici işlər, həmçinin yağ, sürtkü və digər texniki mayelərin sızmasının aradan qaldırılması;

7.4.15. Qanunvericiliklə və ya müqavilə üzrə (zəmanət öhdəlikləri) İstehsalçının məsuliyyətinə düşən zərərlər;

7.4.16. Sığorta müqaviləsi bağlanarkən sığortalanan avtomobilin qüsurlarının, zədələrinin olması ilə bağlı Sığortalının məlumatlı olduğu halda bu barədə Sığortaçıya məlumat verməməsi;

7.4.17. Sığortalanmış avtomobilin təyinatına uyğun olmayan məqsədlər üçün istifadə edilməsi;

7.4.18. Sığortalanmış avtomobilin texniki təlimatlarını pozan şəraitdə və ya rejimlərdə istifadə edilməsi;

7.4.19. Avtomobilin təlim məqsədilə, yaxud rəsmi və qeyri-rəsmi yarışlarda, sürət müsabiqələrində, sürət sınaqlarında, avtomobil rallilərində, davamlılıq sınaqlarında istifadə edilməsi;

7.5. Aşağıda qeyd olunan hallar nəticəsində dəyən zərərlər sığorta hadisəsi hesab edilmir:

7.5.1. Avtonəqliyyat hadisəsi;

7.5.2. Yanğın, partlayış, tüstü;

7.5.3. Atılmış və ya düşmüş əşya - avtomobilin xarici səthinə daş, qar, buz və digər əşyaların atılması, dəyməsi və ya düşməsi;

7.5.4. Təbii fəlakət (zəlzələ, vulkan püskürməsi, daşqın, su basma, fırtına, tufan, yer sürüşməsi, çökmə, uçqun, sel və s.);
7.5.5. Üçüncü şəxsin qanunazidd hərəkəti (oğurluq, quldurluq, qaçırma və soyğunçuluq və bunlara cəhd daxil olmaqla);
7.5.6. Heyvanların və quşların hərəkəti;
7.5.7. Təbii proseslərin təsiri (korroziya, çürümə, buxarlanma və s.);
7.5.8. Hərbi əməliyyatlar, terror, vətəndaş müharibəsi, xalq hərəkatı və ya tətil;
7.5.9. Dövlət orqanları tərəfindən müsadirə və ya məhv etmə;
7.5.10. Nüvə partlayışı, radiasiya, radioaktiv çirklənmənin təsiri;
7.5.11. Digər xarici mexaniki və (və ya) kimyəvi təsirlər;
7.5.12. Mənəvi zərər, gəlir itkisi və Sığortalının digər dolayı zərərləri;
7.6. Aşağıdakı hissələrə sığorta təminatı verilmir:
7.6.1. Təbii aşınmaya məruz qalan hər hansı hissə, komponent, mexanizm və aqreqatlara;
7.6.2. Dövrü texniki xidmət zamanı dəyişilməli olan ehtiyat hissələrinə;
7.6.3. Avtomobilin mühərrik hissəsinin yüksək təzyiq altında su, buxar və (və ya) kimyəvi qatqılarla yuyulması nəticəsində sıradan çıxmış hissələrə;
7.6.4. Avtomoilin sürətlər qutusunun dəstəyinin, sükanının və salonunun istənilən hissəsinin üzlük materiallarına;
7.6.5. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, istehsalçı tərəfindən avtomobilin komplektasiyasında nəzərdə tutulmayan avadanlıqlara;
7.6.6. İstehsalçının zəmanəti ilə əhatə olunmayan bütün hissələrə.

## 8. SIĞORTA MƏBLƏĞİ

8.1. Sığorta məbləği sığorta müqaviləsi ilə müəyyənləşdirilir. Sığorta məbləği sığortalanan avtomobilin sığortalanma anındakı real bazar dəyərindən artıq ola bilməz.
8.2. Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği sığortalanan avtomobilin bazar dəyərindən artıq olduğu halda (ikili və ya çoxqat sığorta halında), sığorta müqaviləsi müvafiq sığorta məbləğinin həmin dəyərdən artıq olan hissəsində etibarsızdır.
8.3. Sığorta müqaviləsində sığorta məbləği sığorta dəyərindən az olduğu halda, sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir, bir şərtlə ki, qismən sığorta barədə müddəa sığorta müqaviləsində əks edilmiş olsun.
8.4. Sığorta ödənişi həyata keçirildikdə sığorta məbləği həyata keçirilmiş sığorta ödənişi məbləğində azalır.

## 9. AZADOLMA

9.1. Sığorta müqaviləsində aşağıdakı növlərdə azadolma məbləğləri müəyyən edilə bilər:
9.1.1. ***Şərtli azadolma məbləği*** – bu növ azadolma məbləği nəzərdə tutulduqda, sığorta hadisəsi nəticəsində zərər məbləği, avtomobilin qismən sığortası halında isə zərər məbləğinin sığorta ödənişinin həyata keçirilməsi üçün tətbiq edilən hissəsi azadolma məbləğindən çox olduqda və ya sığorta müqaviləsində razılaşdırılmış hər hansı digər halın baş verməsi şərtilə azadolma məbləği tətbiq olunmur.
9.1.2. ***Şərtsiz azadolma məbləği*** - bu növ azadolma məbləği nəzərdə tutulduqda azadolma məbləği zərər məbləğindən, avtomobilin qismən sığortası halında isə zərər məbləğinin sığorta ödənişinin həyata keçirilməsi üçün tətbiq edilən hissəsindən çıxılır.
9.2. Azadolma məbləği həm pul məbləği, həm də sığorta məbləğinin və ya zərər məbləğinin faiz nisbəti ilə ifadə oluna bilər.
9.3. Sığorta müqaviləsində müxtəlif hallar üçün müxtəlif azadolma məbləğləri müəyyən oluna bilər.

## 10. SIĞORTA HAQQI

10.1. Sığorta haqqı sığorta müqaviləsində göstərilən müddətdə və qaydada sığortalı tərəfindən Sığortaçıya ödənilən haqdır.
10.2. Sığorta haqqının miqdarı sığorta məbləği, sığorta təminatı (verilən risklər), sığorta müddəti və sığorta tariflərindən asılı olaraq hesablanır.
10.3. Sığorta müqaviləsində sığorta haqqının birdəfəlik və ya hissə-hissə ödənilməsi razılaşdırıla bilər.
10.4. Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir.
10.5. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə, sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 10.6. bəndinin tələbini nəzərə alaraq, yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.
10.6. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

## 11. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI

11.1. Sığorta müqaviləsi sığortalının sığortalanma haqqında ərizəsi əsasında bağlanılır. Sığortalanma haqqında ərizə bu Qaydalara Əlavədə nəzərdə tutulmuş ərizə formasının doldurulması yolu ilə tərtib edilir.

11.2. Sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan, habelə sığortaçının tələb etdiyi və müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməlidir.

11.3. Sığorta müqaviləsi yazılı olaraq aşağıdakı hər hansı bir formada bağlanılır:

11.3.1. Tərəflərin bu Qaydalar əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;

11.3.2. Sığortalının bu Qaydalarla tanış olmasını və onun şərtləri ilə razılaşmasını yazılı qaydada təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən sığortalıya sığorta şəhadətnaməsinin və bu Qaydaların bir nüsxəsinin verilməsi yolu ilə.

11.4. Bu Qaydaların 11.3.2-ci bəndində nəzərdə tutulmuş halda sığorta şəhadətnaməsində sığorta predmetinin sığortalandığı risklər konkret olaraq sadalanmalıdır.

11.5. Bu Qaydaların 11.3-cü bəndində nəzərdə tutulmuş sığorta müqaviləsinin formaları elektron sənəd formasında da bağlana bilər.

11.6. Sığorta müqaviləsi bağlanarkən Sığortaçı aşağıdakı sənədləri tələb etmək hüququna malikdir:

11.6.1. Sığortalının şəxsiyyətini təsdiq edən sənədin surəti (fiziki şəxsdirsə - şəxsiyyət vəsiqəsi, müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi; hüquqi şəxsdirsə - dövlət qeydiyyat haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış);

11.6.2. Etibarnamə və ya sığorta marağının mövcud olmasını təsdiq edən digər sənədin surəti;

11.6.3. Nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin surəti;

11.6.4. Avtomobilin texniki baxışdan keçməsini, ATXS-nin adını, baxış zamanı keçdiyi məsafəni, görülmüş işlərin təsvirini və tarixlərini əks etdirən servis kitabçası və ya hər hansı digər sənədin surəti;

11.6.5. İstehsalçının zəmanət müddətini təsdiq edən sənəd.

## 12. SIĞORTA MÜDDƏTİ VƏ SIĞORTA ƏRAZİSİ

12.1. Sığortanın müddəti sığorta müqaviləsi ilə müəyyən olunur.

12.2. Sığortaçının sığorta müqaviləsi üzrə öhdəlikləri sığorta müqaviləsində göstərilən sığorta müddətinin başlanması tarixindən yaranır, bu şərtlə ki, sığorta haqqı və ya onun sığorta müqaviləsi ilə müəyyən olunmuş ilk hissəsi həmin tarixdən etibarən 1 aydan gec olmayaraq ödənilmiş olsun.

12.3. Sığorta haqqı və ya onun sığorta müqaviləsi ilə müəyyən olunmuş birinci hissəsi bu Qaydaların 12.2-ci bəndində müəyyən edilmiş müddətdə ödənilmədikdə sığorta müqaviləsi qüvvədən düşmüş hesab olunur.

12.4. Sığorta haqqının sığorta müqaviləsi ilə müəyyən olunmuş növbəti hissəsi sığorta müqaviləsində həmin hissənin ödənilmə tarixi kimi müəyyən edilən tarixdən sonrakı 15 gün müddətində ödənilmədikdə, sığorta müqaviləsi həmin müddətin başa çatması ilə qüvvədən düşmüş hesab olunur.

12.5. Bu Qaydaların 14.1.9.-ci bəndi istisna olmaqla, sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə üçün əsas olan hər hansı digər hal yarandıqda, sığorta müqaviləsi həmin halın yarandığı andan etibarən qüvvədən düşmüş hesab edilir.

12.6. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi Azərbaycan Respublikasının ərazisində qüvvədədir.

12.7. Sığorta müqaviləsinin qüvvədə olduğu ərazi tərəflərin yazılı razılığı ilə dəyişdirilə bilər.

12.8. Sığorta müqaviləsinin qüvvədə olduğu ərazidən kənar baş verən hadisələr sığorta təminatına daxil deyil.

## 13. SIĞORTA MÜQAVİLƏSİNƏ ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ

13.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində ona tərəflərin razılığı ilə Azərbaycan Respublikasının sığorta qanunvericiliyinə zidd olmayan və sığortalının vəziyyətini bu Qaydaların şərtlərinə nisbətən pisləşdirməyən əlavələr və dəyişikliklər edilə bilər. Bu tələbə uyğun olmayan əlavələr və dəyişikliklər etibarsızdır.

13.2. Sığorta müqaviləsi bağlandıqdan sonra həmin müqavilənin qüvvədə olduğu müddət ərzində sığortalı sığorta riskinin dəyişməsinə təsir göstərə bilən hallar (avtomobilin özgəninkiləşdirilməsi, nömrəli aqreqatların – mühərrik, şassi və banın dəyişdirilməsi, əlavə avadanlığın quraşdırılması və s.) barədə bildiyi və ya bilməli olduğu tarixdən 5 iş günü müddətində bu barədə sığortaçıya yazılı məlumat verməlidir;

13.3. Sığortaçı sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə sığorta riskinin artmasına səbəb olan dəyişikliklər barədə məlumat aldıqda sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsini, o cümlədən sığorta haqqının artırılmasını tələb edə bilər. Sığortalı bu tələblə razılaşmadıqda, sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsini tələb edə bilər.

## 14. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERİLMƏSİ

14.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:
14.1.1. sığorta predmeti artıq mövcud olmadıqda;
14.1.2. aşağıdakı hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda:
14.1.2.1. sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış əmlakı qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs vəfat edərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;
14.1.2.2. müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir;
14.1.2.3. sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri müvafiq hüquq varisinə keçir.
14.1.3. Sığorta müqaviləsi üzrə sığortalı olmayan sığorta olunan vəfat etdikdə, sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;
14.1.4. sığorta müqaviləsində digər hal nəzərdə tutulmamışdırsa, sığortalanmış əmlak özgəninkiləşdirilərkən, sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə; əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə, əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə sığortalı dəyişdirilir;
14.1.5. sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;
14.1.6. sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam olaraq yerinə yetirdikdə;
14.1.7. sığortalı sığorta haqqını sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;
14.1.8. sığorta marağı artıq mövcud olmadıqda;
14.1.9. sığortalı və ya sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə.

## 15. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏ İLƏ BAĞLI XƏBƏRDAR ETMƏ

15.1. Bu Qaydaların 14-cü bəndində göstərilən hallarda sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda, bu Qaydaların 15.2.-ci bəndi nəzərə alınmaqla müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.
15.2. Sığorta müqaviləsinə bu Qaydaların 14.1.9.-cu bəndinə uyğun olaraq sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən, bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.

## 16. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ

16.1. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı həmin müqavilə üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.
16.2. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır. Bu halda sığortaçı sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.

16.3. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

16.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 16.1.-ci və 16.2.-ci maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## 17. TƏRƏFLƏRİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ

17.1. Sığortalının hüquqları:
17.1.1. sığorta müqaviləsi bağlanarkən sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə tanış olmaq;
17.1.2. sığorta şəhadətnaməsi itdiyi halda sığortaçıdan onun dublikatını almaq;
17.1.3. sığorta müqaviləsinin şərtləri və bu Qaydalar barədə sığortaçıdan izahatlar almaq;
17.1.4. sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsi təklifi ilə çıxış etmək;
17.1.5. qanunla və bu Qaydalarda nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

17.2. Sığortalının vəzifələri:
17.2.1. sığortalanma haqqında ərizədə qoyulan suallara doğru cavablar vermək;
17.2.2. sığorta haqqını sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə və miqdarda ödəmək;
17.2.3. sığortaçını sığorta hadisəsi barədə məlumatlandırmaq. Bu vəzifə faydalanan şəxs tərəfindən də yerinə yetirildikdə qənaətbəxş hesab edilir;
17.2.4. sığorta müqaviləsi bağlanarkən sığortalanma haqqında ərizə formasında göstərilən və özünə məlum olan, sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat vermək;
17.2.5. qanunla və bu Qaydalarda nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək;

17.3. Sığortaçının hüquqları:
17.3.1. sığortalının verdiyi məlumatların düzgünlüyünü yoxlamaq;
17.3.2. sığortalının sığortalanma haqqında ərizədə qoyulan suallara qəsdən həqiqətə uyğun olmayan cavablar verməsini sığorta müqaviləsinin qüvvəyə mindiyi tarixdən sonra aşkar edildikdə, həmin müqaviləyə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etmək;
17.3.3. qanunla və bu Qaydalarda nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək;

17.4. Sığortaçının vəzifələri:
17.4.1. sığortalıya bu Qaydaların əlavə edildiyi sığorta şəhadətnaməsi vermək;
17.4.2. sığorta hadisəsi hesab edilə bilən, araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu göndərmək;
17.4.3. qanunla və bu Qaydalarda nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək.

17.5. Aşağıdakı hallarda sığortaçının sığortalı qarşısında öhdəlikləri tam olaraq yerinə yetirilmiş hesab edilir:
17.5.1. Sığorta müqaviləsi üzrə verilmiş sığorta ödənişlərinin ümumi həcmi ümumi sığorta məbləğinə bərabər olduqda;
17.5.2. sığorta müqaviləsi üzrə sığorta məbləği ilk sığorta hadisəsi üzrə nəzərdə tutulduğu hallarda, ilk sığorta hadisəsi üzrə sığorta ödənişi verildikdə.

## 18. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ

18.1. Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan şəxs, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.

18.2. Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya sığorta olunan, həmçinin faydalanan şəxs bu Qaydaların 18.1-ci bəndində nəzərdə tutulmuş səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə, sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırmalıdır.

18.3. Bu Qaydaların 18.1-ci bəndində üzərinə məlumatlandırma vəzifəsi qoyulan şəxslərdən başqa digər şəxslər, o cümlədən səlahiyyətli dövlət orqanları və müvafiq hallarda zərərçəkən tərəfindən də sığorta hadisəsinin baş verməsi haqqında hər hansı vasitə ilə sığortaçıya xəbər verilməsi sığorta hadisəsi barədə məlumatlandırılma hesab edilir.

18.4. Sığorta hadisəsi zamanı sığortalı mümkün zərərin qarşısını almaq və miqdarını azaltmaq üçün bütün ağlabatan və mümkün tədbirləri görməlidir;
18.5. Sığortaçı sığorta hadisəsi və onun nəticələri ilə əlaqədar sığortalının bütün hərəkətləri üzərində nəzarət etmək və sığorta ödənişinin həyata keçirilməsinə təsir edə bilən bütün məsələlər haqqında qərar qəbul etmək imkanına malik olmalıdır;
18.6. Sığortalı sığorta hadisəsi nəticəsində zərər dəymiş sığorta predmetini sığortaçı baxış keçirənə qədər sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlamağa borcludur;
18.7. Sığortalı sığorta hadisəsinə aid bütün sənədləri və məlumatı sığortaçıya təqdim etmək öhdəliyi daşıyır;
18.8. Sığorta hadisəsi ilə bağlı bütün rəsmi və qeyri-rəsmi təhqiqatlarda sığortaçı öz hesabına sığortalının maraqlarını təmsil və müdafiə etməyə haqlıdır;
18.9. Sığorta hadisəsi faktının və şəraitinin, eyni zamanda zərərin miqdarının sübut edilməsi üçün sığortalı malik olduğu və həmçinin qanunvericiliyə və adi təcrübəyə müvafiq olaraq əldə etməli olduğu bütün sənədləri sığortaçıya təqdim etməyə borcludur.

## 19. ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

19.1. Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin, yaxud onların nümayəndəsinin təqdim etdiyi sığorta tələbi əsasında mümkün olan ən qısa müddət ərzində sığortaçı müəyyən edir.
19.2. Sığortaçı dəymiş zərəri müxtəlif üsullarla, o cümlədən zərər dəymiş predmetin və ya hadisə yerinin fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla, bilavasitə özü və ya «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10.10-cu maddəsinin tələbini nəzərə almaqla nümayəndəsi kimi təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs vasitəsilə qiymətləndirir.
19.3. Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə, zərərin miqdarının qiymətləndirilməsi «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10.10-cu maddəsinin tələbi nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert tərəfindən aparılır.
19.4. Sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.
19.5. Əmlak sığortası müqaviləsi üzrə sığortalı, sığorta olunan və ya üçüncü şəxs aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:
19.5.1. Zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;
19.5.2. sığortaçı sığorta hadisəsi barədə bu Qaydalarda nəzərdə tutulmuş qaydada məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;
19.5.3. digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

## 20. SIĞORTA ÖDƏNİŞİNİN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI VƏ ŞƏRTLƏRİ, SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR

20.1. Sığorta ödənişi aşağıdakılardan hər birinin mövcud olduğu halda həyata keçirilir:
20.1.1. sığorta hadisəsi baş verdikdə, sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya ünvanladığı sığorta tələbi;
20.1.2. sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;
20.1.3. sığorta müqaviləsinin surəti;
20.1.4. Zərər məbləğini təsdiq edən sənəd (görülmüş işlər, dəyişdirilmiş hissələr, komponentlər, mexanizmlər və ya aqreqatlar, istifadə olunmuş materiallar barədə ətraflı məlumat qeyd olunmalıdır);
20.1.5. Avtomobilin hadisə zamanı BAN nömrəsinin, yürüşün və sınmış hissələrinin, komponentlərinin, mexanizmlərinin və ya aqreqatlarının fotoşəkilləri;
20.1.6. Faydalanan şəxs fiziki şəxs olduqda onun şəxsiyyət vəsiqəsinin surəti, hüquqi şəxs olduqda isə onun sığorta ödənişini almaq üçün təyin edilən nümayəndəsinə verilmiş müvafiq etibarnamə;
20.1.7. Etibarnamə və ya sığorta marağının mövcud olmasını təsdiq edən digər sənədin surəti;
20.1.8. Nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin surəti;
20.1.9. Avtomobilin texniki baxışdan keçməsini, ATXS-nin adını, baxış zamanı keçdiyi məsafəni, görülmüş işlərin təsvirini və tarixlərini əks etdirən servis kitabçası və ya hər hansı digər sənədin surəti;
20.1.10. İstehsalçının zəmanət müddətini təsdiq edən sənəd.
20.2. Bu Qaydaların 20.1.-ci bəndində nəzərdə tutulan sənədlərdən sonuncusunun sığortaçıya daxil olduğu tarixdən 7 iş günündən gec olmayaraq sığortaçı sığorta ödənişini verməli, yaxud sığortalıya, sığorta olunana və ya faydalanan şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etməlidir;

20.3. Sığortaçı sığorta ödənişini hesablayarkən aşağıdakı xərcləri ödəyir:
20.3.1. Sığorta olunmuş nasaz hissələrin, komponentlərin, mexanizmlərin və ya aqreqatların diaqnostikasına, demontajına, təmirinə və montajına çəkilən xərclər;
20.3.2. Sığorta olunmuş dəyişdirilən eyni texniki xarakteristikalara malik olan hissələrin, komponentlərin, mexanizmlərin və ya aqreqatların dəyəri;
20.3.3. Sığorta olunmuş hissələrin, komponentlərin, mexanizmlərin və ya aqreqatların sınmasından irəli gələn yağ, sürtkü və digər texniki mayelərin dəyişdirilməsinə və ya əlavə olunmasına çəkilən xərclər.
20.4. Zərərin miqdarı tələb olunan təmir-bərpa işlərinin dəyərinə bərabər hesab edilir.
20.5. Zərərin miqdarı barədə tərəflər arasında razılıq əldə edildikdən sonra sığorta hadisəsi üzrə sığorta ödənişi birbaşa ATXS-na ödənilir.
20.6. Təmir-bərpa işlərinə aşağıdakılar daxil deyil:
20.6.1. profilaktik texniki xidmət və təmir ilə bağlı xərclər; sığorta hadisəsinin baş verməsindən asılı olmayaraq tələb olunan zəruri təmir xərcləri;
20.6.2. Zəruri xərclərdən artıq çəkilmiş xərclər.
20.7. Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir;
20.8. Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur, bu halda sığorta məbləğinin azalmış hissəsinə uyğun olaraq, əlavə sığorta haqqı ödənilməklə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği bərpa edilə bilər.

## 21. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI

21.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:
21.1.1. bu Qaydaların 18.1-ci bəndinin tələblərinə əməl edilməməsi nəticəsində sığortaçı hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyənləşdirmək imkanından məhrum olması;
21.1.2. Azərbaycan Respublikası Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin müvafiq hadisənin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə hadisə ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;
21.1.3. müqavilə ilə hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda, hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;
21.1.4. sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin məbləği həmin həcmdə azalmış olardı;
21.1.5. zərər dəymiş əmlakın sığortaçıya təqdim edilməsi ilə bağlı bu Qaydaların 19.5-ci maddəsinə riayət edilməməsinin sığortaçını zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;
21.1.6. bu Qaydaların 21.2-ci bəndi nəzərə alınmaqla, sığorta predmeti, həmçinin sığorta olunan şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;
21.1.7. əmlakın sığortası üzrə sığortalı, sığorta olunan və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;
21.1.8. baş vermiş hadisənin sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;
21.1.9. sığorta haqqının növbəti hər hansı bir hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu Qaydaların 10.5 bəndində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra sığorta hadisəsinin baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda.
21.2. Bu Qaydaların 11.2-ci bəndində nəzərdə tutulmuş məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən sığortaçıya məlum olduqda və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli olmadıqda, habelə tələb olunan məlumata sığortalının cavab verməməsinə baxmayaraq sığorta müqaviləsi bağlanmış olduğu halda sığortaçı sığorta ödənişinin verilməsindən imtina üçün yanlış məlumatın verilməsi və ya tələb olunan məlumatın verilməməsi faktına əsaslana bilməz.
21.3. Bu Qaydaların 21.1.5-cı yarımbəndində müəyyən edilmiş hallarda sığortaçı zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olduqda belə, aşkar faktlarla sübut olunan həcmdə sığorta ödənişindən imtina edə bilməz.
21.4. Azərbaycan Respublikası Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığorta hadisəsi onun baş verməsinə yönələn, sığorta müqaviləsi üzrə sığortalı və (və ya) sığorta olunan hesab edilməyən faydalanan şəxsin qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi nəticəsində baş verdikdə, həmin faydalanan şəxs sığorta ödənişini almaq hüququndan məhrum olur.

## 22. SIĞORTA MÜQAVİLƏSİNİN ŞƏRTLƏRİNİN YERİNƏ YETİRİLMƏMƏSİNƏ VƏ YA LAZIMİ QAYDADA YERİNƏ YETİRİLMƏMƏSİNƏ GÖRƏ TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

22.1. Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyət daşıyırlar.

## 23. SUBROQASİYA HÜQUQU

23.1. Sığortalanmış əmlaka dəymiş zərərin əvəzini ödəmiş sığortaçı sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən istifadə edə bilər.
23.2. Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüququ sığorta ödənişini vermiş sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.
23.3. Faydalanan şəxs sığorta ödənişini aldıqda subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.
23.4. Faydalanan şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri sığortaçıya verməkdən imtina etdikdə sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.
23.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

## 24. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

24.1. Sığorta müqaviləsinin icrasından irəli gələn mübahisələr tərəflərin qarşılıqlı razılığı ilə həll olunur.
24.2. Sığorta müqaviləsinin icrasından irəli gələn mübahisələrin həllində tərəflər arasında qarşılıqlı razılığın əldə olunması mümkün olmadıqda, mübahisələr məhkəmə qaydasında həll edilir.
24.3. Sığorta müqaviləsi üzrə hüquqlarının sığortaçı tərəfindən pozulduğunu hesab edən sığortalı, sığorta olunan və ya faydalanan şəxs maliyyə bazarlarına nəzarəti orqanına müraciət edə bilər.

**AVTOMOBİLLƏRİN UZADILMIŞ ZƏMANƏT SIĞORTASI ÜZRƏ SIĞORTALANMA HAQQINDA ƏRİZƏ**

**1. SIĞORTALI HAQQINDA MƏLUMAT**

| | | |
|---|---|---|
| 1.1 | Tam adı | |
| 1.2 | Fiziki şəxs olduqda FIN, hüquqi şəxs olduqda VÖEN | |
| 1.3 | Ünvanı | |
| 1.4 | Telefon nömrəsi | |

**2. SIĞORTA PREDMETİ HAQQINDA MƏLUMAT**

| | | |
|---|---|---|
| 2.1 | Marka və model | |
| 2.2 | Dövlət qeydiyyat nişanı | |
| 2.3 | BAN nömrəsi | |
| 2.4 | Şassi nömrəsi | |
| 2.5 | Mühərrik nömrəsi | |
| 2.6 | Buraxılış ili | |
| 2.7 | Mühərrik həcmi | |
| 2.8 | Maksimal icazə verilmiş kütlə | |
| 2.9 | Oturacaq yerlərin sayı | |
| 2.10 | Hazırki bazar dəyəri | |
| 2.11 | Sığorta məbləği | |
| 2.12 | Mövcud olan zədələr | |

Bununla bəyan edirəm ki, bu Ərizədə verilən məlumat tam və həqiqətə uyğundur və bu ərizənin veriləcək sığorta müqaviləsinin ayrılmaz hissəsi olmağına razılıq verirəm.

**Tarix** ________________________ **İmza** ____________________________